**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

**DOI: 10.59610/bbu1.2023.152-157**

*Qasımova Aysel Tofiq qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*E-mail: ayselgasimova@gmail.com*
*© Qasımova A.T., 2023*

**UOT – 37.014**

# HEYDƏR ƏLİYEVİN TƏHSİL SİYASƏTİ İNKLÜZİV TƏHSİLƏ APARAN YOL KİMİ

## X Ü L A S Ə

Ulu Öndər Heydər Əliyevin uğurlu təhsil siyasəti hazırda inklüziv təhsilin inkişafı üçün baza rolunu oynamışdır. Dünyada "təcridetmə" dövründən "inklüzivlik" dövrünədək əlilliyi olan şəxslərin təhsilinə müxtəlif yanaşmalar olmuşdur. Hazırda inklüziv təhsil həm yerli, həm də beynəlxalq qanunvericiliklə tənzimlənir. Müxtəlif tədqiqatlar inklüziv təhsilin bütün şagirdlər üçün həm akademik, həm də sosial-psixoloji baxımdan müsbət nəticələrə gətirib çıxardığını sübut etdiyindən bütün dünyada, o cümlədən ölkəmizdə inklüziv təhsilin inkişafı istiqamətində mühüm əhəmiyyətli işlər görülməkdədir.
**Açar sözlər:** təhsil, inklüzivlik, inklüziv təhsil, əlilliyi olan şəxslər, təhsil müəssisəsi.

## G İ R İ Ş

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə öz doğma xalqına sədaqət və sevgi ilə xidmət etmişdir. Həyat fəaliyyətinin müxtəlif sahələrinə diqqət ayıran Ulu Öndərimizin təhsilə qayğısı hər birimizə yaxşı məlumdur. Onun "Təhsil millətin gələcəyidir", "Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir" və təhsil haqqında bir çox digər kəlamların müəllifi olması təhsilə verdiyi önəmin göstəricilərdən biridir (1). "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir" deyən Heydər Əliyev ölkəmizdə təhsilin dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi ilə ayaqlaşması istiqamətində əvəzsiz işlər görmüşdür (2). Ölkədə xüsusi əhəmiyyətli məsələlərdən olan təhsil daha sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı İlham Əliyevin diqqət mərkəzinə çevrilmişdir.

Məlum olduğu kimi, hər bir vətəndaşın, o cümlədən əlilliyi olan şəxslərin təhsil almaq hüququ var. Hazırda Prezidentimiz İlham Əliyevin təhsilə göstərdiyi diqqət nəticəsində ölkəmizdə əlilliyi olan şəxslərin inklüziv təhsili istiqamətində çox mühüm işlər görülməkdədir. Bununla belə, əlilliyi olan şəxslərin təhsili heç də həmişə inklüziv olmamışdır. Belə ki, qədim dövrlərdə əlilliyi olan uşaqların dünyaya gətirilməsi utanc və günahkarlıq hissi ilə əlaqələn-

**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

dirildiyindən bu uşaqlar cəmiyyətdən gizlədilərək təcrid edilirdi və onların heç bir hüququ tanınmırdı (3). XX əsrin əvvəllərindən 1960-cı illərədək olan "tibbi model" dövrü seqreqasiya ilə əlaqədardır. Bu zaman əlilliyi olan şəxslərin hüquqları məhdudlaşdırıldığından onların ayrıca yaşayışını və təhsilini nəzərdə tutan uşaq evləri, internat tipli təhsil müəssisələri və xüsusi məktəblər yaradılırdı və əlilliyi olan uşaqların inkişafı və cəmiyyətə adaptasiyası məsələləri diqqətdən kənarda qalırdı. 1960-1980-ci illəri əhatə edən "normallaşdırma modeli", yaxud "inteqrasiya" dövründə isə əlilliyi olan uşaqların digər uşaqlar kimi eyni ehtiyaclarının olduğu qəbul edildiyindən onların ailədə yaşamaq və təhsil almaq hüququna hörmətlə yanaşılmağa başlanıldı. Hakimiyyət artıq bu uşaqların internat evləri deyil, daha çox öz evlərində yaşamasını və əlilliyin ağırlıq dərəcəsindən asılı olmayaraq, təhsil almaları üçün münasib şəraitin yaradılmasını dəstəkləməyə başladı. İlk dəfə Skandinaviyada yaranan bu modelə görə Böyük Britaniya, Amerika, İtaliya və İsveçrədə əlilliyi olan şəxslərin təhsilinə yeni yanaşma formalaşdırılır, uşaq evləri və internat məktəbləri bağlanılaraq oradakı uşaqlar övladlığa və ya qəyyumluğa verilir. 1980-ci illərdən indiyədək olan dövr isə əlilliyin sosial modelinin tətbiq edildiyi "inklüzivlik" dövrü adlanır. İnklüzivlik sağlamlıq imkanlarından, bacarıqlarından, ailə vəziyyətindən, irqindən, dinindən asılı olmayaraq bütün şəxslərin təhsil prosesində və həyatda bərabərhüquqlu iştirakıdır (4).




***Şəkil 1. Əlilliyi olan şəxslərə müxtəlif yanaşmalar***

İnklüziv təhsil cinsi, etnik, dini və mədəni mənşəyindən, yoxsul və ya zəngin olmasından, əlilliyi olub-olmamasından asılı olmayaraq, hər bir uşağın yaxınlıqdakı ümumtəhsil məktəbdə təhsilə cəlb edilməsidir. Təhsildə inklüzivlik təhsil prosesində iştirak edən bütün tərəfdaşların rifahına xidmət edir. Cəmiyyətdə inklüziv təhsilin yalnız əlilliyi olan şagirdlər üçün faydalı olması haqqında geniş yayılmış fikirlər mövcuddur. Lakin inklüzivlik təhsilin bir keyfiyyəti olduğu üçün ümumilikdə bütün şagirdlər üçün faydalıdır. Belə ki, tədqiqatlar göstərir ki, inklüziv təhsil bütün şagirdlər üçün həm akademik, həm də sosial psixoloji cəhətdən qısa və uzun müddətli müsbət nəticələrə səbəb olur (5).

**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

Təhsildə inklüzivlik əlilliyi və əlilliyi olmayan şagirdlərin akademik nailiyyət göstəricilərinə də təsir edir. Məsələn, inklüziv siniflərdə oxuyan əlilliyi olan, xüsusilə əqli əlilliyi olan şagirdlər xüsusi məktəblərdə oxuyan şagirdlərlə müqayisədə oxu və riyaziyyatda əhəmiyyətli dərəcədə irəliləyiş nümayiş etdirirlər. Bu şagirdlər müxtəlif fənlər üzrə nailiyyət testlərində də əhəmiyyətli dərəcədə daha yaxşı nəticə göstərirlər. Bundan əlavə, inklüziv təhsil əlilliyi olan şagirdlərə orta təhsildən sonra daha geniş imkanlardan yaradır. Onların orta məktəbdən sonrakı təhsilə cəlb olunma, işlə təmin olunma və ya müstəqil yaşamaq ehtimalı daha yüksəkdir (5). İnklüziv təhsil əlilliyi olmayan şagirdlərin də akademik nailiyyətlərinə müsbət təsir edir. Belə ki, dərsdə geri qalan şagirdlərin inklüziv siniflərdə müəllimin əlavə dəstəyindən yararlanması onların akademik nailiyyətlərinin yüksəlməsinə səbəb olur. Aparılmış tədqiqatlara görə, əlilliyi olmayan uşaqlar da inklüziv siniflərdə təhsil alarkən onlar oxu və riyaziyyat fənləri üzrə daha yüksək irəliləyişə nail olurlar. Bununla yanaşı, əlilliyi olan şagirdə hər hansı bacarığı tətbiq etməyə kömək etməklə şagirdin özünün mövzu ilə bağlı bilikləri və təcrübəsi artır. Beləliklə, əlilliyi olmayan şagirdlərin akademik nailiyyətinə nəinki maneə yaranmır, əksinə hətta onların akademik nailiyyətləri güclənir (5).

İnklüziv təhsilin sosial-psixoloji əhəmiyyəti də xüsusilə diqqətçəkəndir. Əlilliyi olan şagirdlərin daha çox sosiallaşmaq imkanı yarandığından onların ünsiyyət, sosial və real həyat bacarıqları daha çox inkişaf edir. Onlar özlərini cəmiyyətin bir hissəsi hiss etdikləri üçün özlərini daha çox sevilən hiss edir, dostluq imkanları qazanır və təqlid vasitəsilə yeni bacarıqlar öyrənmək ehtimalı artır, həmçinin sosial mənsubiyyət hissi formalaşır. Əlilliyi olmayan şagirdlər də sosial-psixoloji baxımdan inklüziv təhsildən faydalanırlar. Onların əlillik, tolerantlıq və dəstək haqqında məlumatlılıq dərəcəsi artır, fərqliliklərə qarşı pozitiv yanaşma və müxtəlif bacarıqları olan şagirdlərlə birgə işləmək bacarığı, həmçinin çətinliklərə baxmayaraq, uğur qazanan şəxslərdən öyrənmək imkanı formalaşır. Fərqliliyə hörmət onlarda özünə-hörməti də inkişaf etdirir (5).

Əlilliyi olan şəxslərin təhsil hüququ bir sıra beynəlxalq qanunvericilikdə öz əksini tapmışdır. Belə ki, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsasən, "hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı bəyannamədə qeyd edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır" (6). 1989-cu ildə qəbul edilmiş BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasına əsasən isə "Əqli və ya fiziki çatışmazlığı olan uşaq onun ləyaqətini təmin edən, özünə inamını artıran və cəmiyyət həyatında fəal iştirakını asanlaşdıran şəraitdə tam dəyərli və ləyaqətli həyat sürməlidir".

Təhsil hüququnun həyata keçirilməsində inklüzivliyin həlledici rolunun tanınması son 30 ildə güclənmiş və hazırda keyfiyyətli inklüziv təhsil anlayışına istinad edən hüquqi cəhətdən ilk icbari xarakterli sənəd olan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada təsbit olunur. Belə ki, Azərbaycan "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nı imzalayan tərəflərdən biri olduğu üçün inklüziv təhsili həyata kecirmək öhdəliyini daşıyır. Konvensiyanın 24-cü maddəsinə əsasən, dövlət əlilliyi olan şəxslərin bərabər imkanlar şəra-

**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

itində təhsil almaq hüququnu tanıyır və onların bütün səviyyələrdə birgə təhsil sistemi və həyat boyu təhsil sisteminə çıxış imkanını dəstəkləyir. Belə ki, onlar cəmiyyətin bərabər hüquqlu üzvləri olduqları üçün hər bir vətəndaşın malik olduğu hüquq və azadlıqlara sahibdirlər (7).

Ölkəmizdə inklüziv təhsil həmçinin yerli hüquqi baza vasitəsilə də tənzimlənir. Belə ki, əlilliyi olan şəxslərin təhsil hüququ ilk öncə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuşdur. "Təhsil haqqında" Qanunun 5-ci maddəsində isə sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verilir (8).

Ölkəmizdə inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur və bu sahədə görülən işlər hazırda davam etməkdədir. "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005 - 2009-cu illər) çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihə həyata keçirilmişdir. 15 ümum təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur (9). 2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondu inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübəni təhlil edərək "İbtidai Təhsil Səviyyəsi Üzrə İnklüziv Təhsilin Tətbiqi" layihəsinə (2015/2016-cı Tədris İlindən Etibarən) başlanılmışdır. 2015-2017-ci illər ərzində 40 nəfər şagirdin Bakı şəhərində 220, 138, 202 və 252 nömrəli məktəblərdə eksperimental siniflərdə reallaşdırılan bu layihə hələ də davam etməkdədir (10). Bununla yanaşı, məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarət olan 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı qəbul olunmuşdur (10).

Prezidentimiz İlham Əliyevin inklüziv təhsil sahəsinə olan xüsusi diqqəti sayəsində 2018-ci ildən etibarən əlilliyi olan uşaqlar üçün ümumtəhsil məktəblərdə keyfiyyətli təhsil almaq üçün əlverişli mühitin yaradılması və cəmiyyətdə əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunmasına dair müsbət münasibətlərin dəstəklənməsi, həmçinin müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması istiqamətində bir çox işlər görülmüşdür. Belə ki, hazırda ölkəmizdə 10 regionda 22 məktəbdə 160 əlilliyi olan şagirdin təhsil aldığı 83 inklüziv sinif təşkil edilmişdir (11). Beynəlxalq ekspertlər tərəfindən hazırlanmış "İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları"nın ADPU-nun "İbtidai sinif müəllimliyi", "Korreksiyaedici təlim", "Təhsildə sosial-psixoloji xidmət" və "Məktəbəqədər təlim və tərbiyə" ixtisaslarının təhsil proqramlarına inteqrasiya edilmişdir. Bununla yanaşı, təhsildə inklüziv təhsilin təşkilini təmin etmək məqsədilə ölkənin bir çox məktəb və Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimlərinə, həmçinin əlilliyi olan şagirdlərin inklüziv siniflərə düzgün seçimini təmin etmək üçün isə 54 Psixoloji-tibbi-pedaqoji komissiya üzvünə bir neçə mərhələdən ibarət təlimlər keçirilmişdir. Bununla yanaşı, adıçəkilən inklüziv siniflərdə tədris aparan pedaqoji heyət və korreksiyaedici pedaqoqlar üçün təlimlər təşkil edilmişdir (12). Onuda qeyd etmək

**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

yerinə düşər ki, inklüziv təhsil təşkil olunan ümumi təhsil müəssisəsində aparılan işlərin qiymətləndirilməsi üçün mütəmadi monitorinqlər də keçiirlir (13).

Yuxarıda qeyd edildiyi kimi, Ulu Öndərimiz Heydər Əliyevin təhsil siyasəti inklüziv təhsilə aparan yol kimi çıxış etmiş və 2004-cü ildən etibarən ölkəmizdə bir çox sahələrdə olduğu kimi, təhsildə də inklüzivlik istiqamətində çox əhəmiyyətli işlərin görülməsinə səbəb olmuşdur.

## Y E K U N

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Heydər Əliyev siyasətinin priotitet sahələrindən biri də təhsil, onun keyfiyyəti və hamı üçün əlçatanlığı olmuşdur. Bu uğurlu siyasətin uzunmüddətli nəticəsi olaraq, hazırda ölkəmizdə əlilliyin tibbi modelindən sosial modelə keçid istiqamətində transformasiya prosesinin getdiyini vurğulamaq olar. Belə ki, inklüziv təhsil də əlilliyin sosial modelinə əsaslandığı üçün onun həm akademik, həm də sosial-psixoloji baxımdan müsbət nəticələrə gətirib çıxardığı və təhsildə inklüzivliyin təminatının yalnız əlilliyi olan şagirdlərin deyil, həm də əlilliyi olmayan şagirdlərin rifahına xidmət etdiyi sübut edilmişdir.

## İstifadə olummuş ədəbiyyat siyahısı:

1. http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm
2. https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_Heyder_Aliyevin_tarixi_xidmetleri-2341676
3. https://www.washington.edu/doit/history-and-current-trends-regarding-people-disabilities
4. https://static.inkluzivtehsil.edu.az/book/files/Məlumat%20kitabçası.pdf
5. https://www.researchgate.net/publication/248571719_Effects_of_inclusion_on_students_with_and_without_special_educational_needs_reviewed
6. https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-
7. https://e-qanun.az/framework/15641
8. https://e-qanun.az/framework/18343
9. http://www.anl.az/down/meqale/az_muellimi/2018/aprel/586270.htm
10. https://e-qanun.az/framework/37269
11. https://arti.edu.az/2022/10/04/inkluziv-sinif-təskil-edilən-umumi-təhsil-muəssisələrinin-səbəkəsinin-genisləndirilməsi-ii-mərhələ-adli-layihə/
12. https://arti.edu.az/2022/10/04/inkluziv-sinif-təskil-edilən-umumi-təhsil-muəssisələrinin-səbəkəsinin-genisləndirilməsi-ii-mərhələ-adli-layihə/
13. https://arti.edu.az/2022/12/03/inkluziv-sinif-təskil-edilən-umumi-təhsil-muəssisələrinin-səbəkəsinin-genisləndirilməsi-ii-mərhələ/

**AUDİT 2023, 1 (39), səh. 152-157.**
**AUDIT 2023, 1 (39), pp. 152-157.**
**АУДИТ 2023, 1(39), стр. 152-157.**

*Aysel Tofig Gasimova,*
*Ph.D. (Econ.),*
*Baku Business University,*
*E-mail: ayselgasimova@gmail.com*
*© A.T. Gasimova, 2023*

## EDUCATIONAL POLICY OF HEYDAR ALIYEV AS A WAY TO INCLUSIVE EDUCATION

### A B S T R A C T

Successful education policy – held by Great Leader Heydar Aliyev has played – an important role for the development of inclusive education. In the world, there have been different approaches to the education of people with disabilities, from the period of "isolation" to the period of "inclusion". Currently, inclusive education is regulated by both local and international legislation. Various studies prove that inclusive education leads to positive results for all students both academically and from a socio-psychological point of view, important works are being done in the direction of inclusive education development all over the world, including our country.

**Keywords:** education, inclusion, inclusive education, persons with disabilities, educational institution.

*Гасымова Айсель Тофиг кызы,*
*доктор философии по экономике,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: ayselgasimova@gmail.com*
*© Гасымова А.Т., 2023*

## ОБРАЗОВАТЕЛЬНАЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА КАК ПУТЬ К ИНКЛЮЗИВНОМУ ОБРАЗОВАНИЮ

### Р Е З Ю М Е

Успешная образовательная политика Великого Лидера Гейдара Алиева в настоящее время сыграла роль основы для развития инклюзивного образования. В мире сложились разные подходы к образованию людей с инвалидностью, от периода «изоляции» до периода «инклюзии». В настоящее время инклюзивное образование регулируется как местным, так и международным законодательством. Поскольку различные исследования доказывают, что инклюзивное образование приводит к положительным результатам для всех обучающихся как в академическом, так и в социально-психологическом отношении, во всем мире, в том числе и в нашей стране в ведутся важные работы в направлении развития инклюзивного образования.

**Ключевые слова:** образование, инклюзия, инклюзивное образование, инвалиды, образовательное учреждение.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.02.2023*
*Təkrar işləməyə göndərilmişdir: 21.02.2023*
*Çapa qəbul olunmuşdur: 01.03.2023*

*Дата поступления статьи в редакцию: 13.02.2023*
*Отправлено на повторную обработку: 21.02.2023*
*Принято к печати: 01.03.2023*

*The date of the admission of the article to the editorial office: 13.02.2023*
*Send for reprocessing: 21.02.2023*
*Accepted for publication: 01.03.2023*